**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

**DOI: 10.59610/bbu1.2023.13-21**

*İbrahimov İslam Hacı oğlu,*
*iqtisad elmləri doktoru, professor,*
*Əməkdar kənd təsərrüfatı işçisi,*
*Bakı Biznes Universiteti,*
*Email: bbu-kafedra@mail.ru*
*© İbrahimov İ.H., 2023*

**UOT - 332.2.021**

# HEYDƏR ƏLİYEVİN İSLAHATLAR STRATEGİYASI AQRAR İNKİŞAFIN TƏMƏLİDİR

## X Ü L A S Ə

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda aqrar islahatların həyata keçirilməsi zəruriliyini, onun əsas istiqamətlərini müəyyənləşdirmiş, bu prosesin strategiyasını əsaslandıraraq onun qanunvericilik bazasının hazırlanması və icrası mexanizmlərinə rəhbərlik etmişdir. Müəyyən edilən strategiyanın həyata keçirilməsi üçün sistemli və məqsədyönlü mexanizmlər hazırlanmış, yeni iqtisadi münasibətlərin formalaşdırılması əsasında sahibkarlıq və sosial-iqtisadi inkişafın təmin edilməsinə əsaslar yaradılmışdır.

**Açar sözlər:** aqrar islahatlar, hüquqi əsaslar, mülkiyyət, iqtisadi münasibətlər, sahibkarlıq, strategiya.

## G İ R İ Ş

Məlum olduğu kimi, 1990-ci illərin əvvəllərində keçmiş İttifaqda baş verən ictimai-siyasi proseslər bu dövlətin süqutu və ümumi iqtisadi məkanın dağılması ilə nəticələndi. Bununla yanaşı, Azərbaycana qarşı işğalçı siyasət respublikada ümumi vəziyyəti daha da ağırlaşdırmış və ölkədə ictimai-siyasi prosesləri dağıdıcı məcraya yönəltmişdi. Ölkənin müdafiəsində və dövlət quruculuğunda, həm də iqtisadiyyatda kəskin fəsadlar əmələ gəlmişdi. 1990-ci illərin əvvəllərində dövlətə itaətsizlik, ölkə ərazilərinin erməni işğalçıları tərəfindən zəbt olunması, iqtisadiyyatı tənəzzülə gətirib çıxarmışdı. Ölkədə daxili gərginlikdən istifadə edən erməni silahlı birləşmələri Azərbaycanın rayonlarını bir-birinin ardınca işğal edir, qaçqın və məcburi köçkünlər ordusu getdikcə çoxalırdı. Bu proseslər iqtisadi tənəzzülü dərinləşdirmişdi və ölkədə ərzaq təminatı böyük qorxu altında idi. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sahə də ağır böhran vəziyyətinə düşmüşdü.

Dövlətlərarası iqtisadi əlaqələrin pozulması, Ukrayna və Rusiya kimi ənənəvi bazarların itirilməsi, dövlət idarəetmə orqanlarında səriştəsiz kadrların işləməsi və rəhbər işçilərin tez-tez dəyişdirilməsi, mütəxəssislərin rəyləri ilə hesablaşmaması ölkə daxilində ictimai-siyasi vəziyyəti gərginləşdirmiş, böhranı daha da dərinləşdirmişdi. Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalının kəskin surətdə azalmasına səbəb olmuşdu. Bu azalma 1996-cı ilə kimi davam etmişdi.

1990-ci illə müqayisədə 1995-ci ildə taxıl istehsalı 1,5 dəfə, pambıq 2,0 dəfə, tütün 4,5 dəfə,

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

tərəvəz 2,0 dəfə, üzüm 3,9 dəfə, çay yarpağı 3,3 dəfə, ət 2,1 dəfə və süd istehsalı 1,2 dəfə aşağı düşmüş, mal-qaranın sayı 1,1 dəfə, qoyun və keçilərin sayı isə 1,2 dəfə azalmışdı. Uzun müddət yaradılmış istehsal və sosial infrastrukturları, xüsusilə meliorasiya və su təsərrüfatı sistemi, çoxillik əkmələr, üzüm və çay plantasiyaları dağılmaq dərəcəsinə çatmışdı. Torpaqların münbitliyinin qorunub saxlanması, xəstəlik və zərərvericilərə qarşı mübarizə, baytarlıq, seleksiya və heyvandarlıqda cins işinin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi işi praktiki olaraq dayandırılmışdı. Yeyinti və yüngül sənaye məhsulları istehsalı sahəsində də ağır vəziyyət yaranmışdı. Bütün bunların nəticəsində ölkə həm xarici, həm də daxili bazarda öz mövqeyini itirmişdi.

Kənd təsərrüfatı texnikası, gübrələr, pestisidlər və sair istehsal vasitələrinin respublikaya gətirilməsi ilbəil azalmış, 1994-cü ildə ölkəyə əslində kənd təsərrüfatı texnikası gətirilməmişdi. 1991-ci illə müqayisədə 1994-cü ildə respublikaya gətirilən traktorların sayı 52,8 dəfə, kotanların sayı 48,3 dəfə, kultivatorların sayı 33,2 dəfə, dişli malaların sayı 2 dəfə azalmışdı. Ölkədə sənaye məhsulları ilə kənd təsərrüfatı məhsullarının qiymətləri arasındakı tarazlıq pozulmuş, kəndin istehsal və sosial infrastrukturunun inkişafında ağır vəziyyət yaranmışdı. Praktiki olaraq məktəb, mədəniyyət, məişət xidməti və sağlamlıq obyektlərinin tikintisi dayandırılmışdı. Əsas fondların köhnəlməsi sürətlənmiş, kənd təsərrüfatı və emal sənayesinin texniki təchizatı olduqca zəifləmişdi. İstehsal proseslərində elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi, demək olar ki, unudulmuşdu. Kənd təsərrüfatı müəssisələrinin maliyyə nəticələri getdikcə pisləşirdi. Ölkəyə kənd təsərrüfatı məhsulları idxalının miqdarı ildə 400 mln ABŞ dollarına çatmışdı. Həmin dövr kənd təsərrüfatına kapital qoyuluşunun xüsusi çəkisi 14%-dən 1,9%-ə enmişdi. Beləliklə, 1992-1995-ci illərdə kənd təsərrüfatında ümumi məhsul istehsalının həcmi ildə orta hesabla 12% aşağı düşmüşdü (9, s.26).

Kənd təsərrüfatında çalışanların gəlirləri azalmaqla həyat şəraiti də pisləşirdi. Bu isə, öz növbəsində, kənd yerlərində işsizliyin artmasına və yoxsulluq həddinin dərinləşməsinə səbəb oldu. Bütün bunlar, aqrar sahədə mövcud vəziyyətdən çıxmaq üçün əsaslı dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdi. Qeyd edilən problemlərin mövcudluğu və həllinin zəruriliyi aqrar sahənin inkişafına yeni təfəkkür tərzi ilə yanaşmağı tələb edirdi. 1990-cı illərin əvvəllərindən dünyada baş verən siyasi proseslər, postsovet məkanındakı ciddi dəyişikliklər aparılmasını və böhran vəziyyətindən çıxmaq üçün radikal tədbirlərin görülməsini tələb edirdi. Bu zaman Azərbaycan müstəqil, öz adət-ənənlərinə, milli mentalitetə və maraqlara uyğun dəyişikliklər aparmağı əsas məqsəd kimi ön plana qoymalı idi. Bunun üçün iqtisadi sistemin dəyişdirilməsi, dünyanın inkişaf etmiş ölkələrinin keçdiyi yol, bəşəri dəyərlər, demokratik döv-lət quruluşu əsas götürülməli və ölkənin spesifik xüsusiyyətləri nəzərə alınmalı idi.

Azərbaycanı dünyanın sivil dövlətləri sırasına çıxarmağın yeganə yolunun cəmiyyətin həyatının demokratikləşdirilməsinin və iqtisadiyyatın dinamik inkişafının bazar münasibətlərinə keçmək istiqaməti müəyyənləşdirildi.

**Tədqiqatın əsas məzmunu**

Məlumdur ki, Ümummilli Lider Heydər Əliyev 1992-ci və 1993-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən iqtisadiyyatı düşdüyü tənəzzüldən xilas et-

AUDİT 2023, 1 (39), səh. 13-21.
AUDIT 2023, 1 (39), pp. 13-21.
АУДИТ 2023, 1(39), стр. 13-21.

məyin yeganə yolu islahatlar olduğunu bildirmişdi. O, müəyyən etmişdi ki, artıq planlı və mərkəzləşdirilmiş ictimai təsərrüfatçılıq sistemi müasir dövrlə ayaqlaşa bilməz. Keçmiş ümumi iqtisadi məkanın dağılması, sosialist təsərrüfatçılığının nəticələrinin bazar iqtisadiyyatı yolu ilə inkişaf etmiş ölkələrin iqtisadi nəticələri ilə müqayisəsinin ölçüyə gəlməməsi, ümumən dünyada bazar sisteminin üstünlük təşkil etməsi və gələcək qloballaşma kimi strateji amilləri görən Heydər Əliyev sərbəst iqtisadi sistemə keçidi iqtisadi inkişafın açarı kimi müəyyən etmişdi. Ona görə də o, Naxçıvanda ikən 1992-ci ildə Culfa rayonunda ilk dəfə olaraq aqrar islahatlar aparılmasına dair qərar qəbul etmişdi. Sonralar Culfa təcrübəsi respublikada aqrar islahatların həyata keçirilməsində və hüquqi-normativ bazanın hazırlanmasında model kimi istifadə olunmuşdur.

Respublika iqtisadiyyatının inkişafının ancaq islahatlarla bağlı olduğunu göstərən Heydər Əliyev 1993-cü il 29 sentyabr tarixdə Milli Məclisin iclaslarında demişdir: “Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Şübhəsiz ki, gələcəkdə müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatını yalnız bazar iqtisadiyyatı yolu ilə, azad iqtisadiyyat yolu ilə qaldıra bilərik” (3,s.196).

Aqrar islahatların həyata keçirilməsində dünya təcrübəsinə əsaslanmaq məqsədi ilə 1994-cü ildə Çin Xalq Respublikasının, İsrailin, Rusiya Federasiyasının, Qazaxıstan Respublikasının aqrar sahə üzrə iqtisadçı alimlərinin, rəhbər işçilərinin və mütəxəssislərinin iştirakı ilə Azərbaycan Respublikasının Milli Məclisində “Aqrar islahatların aparılması təcrübəsi”nə dair Beynəlxalq konfrans keçirildi. Bundan başqa, 23 dekabr 1994-cü ildə “Aqrar islahatların gedişi”, 25 avqust 1995-ci ildə “Respublikada kənd təsərrüfatı işlərinin gedişi və islahatların aparılması vəziyyəti”, 24 iyun 1996-cı ildə “Respublikada aqrar islahatının gedişi vəziyyəti” və “Torpaq islahatı haqqında” qanun layihəsinin müzakirəsi, 12 iyul, 8 yanvar, 2 aprel, 4 may və 18-19 iyul 1996-cı ildə keçirilən yığıncaqlar və digər toplantılarda ölkədə iqtisadi islahatların aparılmasının prinsipləri, formaları və mərhələləri müəyyən olundu (8, s.93).

21 iyun 1994-cü ildə Prezident sarayında respublika iqtisadiyyatının və həyatın digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədə Heydər Əliyev aqrar islahatların zəruriliyini bildirərək göstərdi ki “Kənd təsərrüfatı məsələləri bu gün müzakirələrimizdə daha çox yer tutdu. Bu olduqca əsaslıdır. Mən keçən görüşlərimizdə bu vəzifəni irəli sürmüşdüm və bir daha deyirəm: iqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasıdır. Kənd təsərrüfatında mövcud və on illərlə hakim kəsilmiş strukturu dəyişdirmək bəlkə də asan məsələ deyildir. Ancaq bu o demək deyil ki, biz bu çətinliklərdən qorxub çəkinərək, yaxud çətinlikləri aradan qaldırmağa cürət etməyərək dayanıb vaxt itirməliyik. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, kənd təsərrüfatında da nicat yolumuz, perspektivimiz, gələcəyimiz iqtisadi islahatların aparılmasıdır. Kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar aparılması strateji yolumuzdur və biz bu yolla da getməliyik” (3, s.33).

Beləliklə, mülkiyyət formasının dəyişdirilməsi, azad sahibkarlığa və bazar münasibətlərinə əsaslanan sərbəst iqtisadiyyatın yaradılması və kənd təsərrüfatı istehsalının düşdüyü böhrandan çıxarılmasının əsas yolunun aqrar islahatlar olması müəyyənləşdirildi.

Aqrar islahatların hüquqi bazasının yaradılması, bünövrəsinin qoyulması, onun təşkili və həyata keçirilməsi üçün əsas istiqamət 1994-cü il noyabrın 5-də “Respublikanın kənd təsərrüfa-

AUDİT 2023, 1 (39), səh. 13-21.
AUDIT 2023, 1 (39), pp. 13-21.
АУДИТ 2023, 1(39), стр. 13-21.

tında aparılan islahatların vəziyyəti”nə həsr olunmuş müşavirədə Heydər Əliyev göstərdi ki: “Respublikanın sosial-iqtisadi böhran vəziyyətindən çıxarılması ilə əlaqədar biz dəfələrlə danışıqlar aparmışıq, fikirlər söyləmişik və bildirmişik ki, böhrandan xilas olmaq üçün, Azərbaycanın iqtisadi potensialından səmərəli istifadə etmək üçün yolumuz iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid yoludur, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa, sahibkarlığa geniş imkanlar yaratmaq yoludur” (3, s.489).

1994-cü il dekabrın 23-də «Aqrar bölmədə iqtisadi islahatlara həsr olunmuş müşavirə» də ölkə iqtisadiyyatında aqrar islahatların əhəmiyyəti bir daha qeyd edildi və göstərildi ki, aqrar bölmədə iqtisadi islahatlar aparmaq, mülkiyyət formasını dəyişmək, torpaq islahatı keçirmək, sərbəst iqtisadiyyata geniş yol açmaq respublikamızın həyatında çox mühüm və əhəmiyyətli, eyni zamanda son dərəcə məsuliyyətli və taleyüklü bir məsələdir» (3, s.32). İslahatların aparılmasının zəruriliyi barədə qəti qərara gəldikdən sonra onun hüquqi bazasının yaradılmasına başlandı.

İlk mərhələdə respublikada aqrar islahatın hüquqi bazasının yaradılması qərara alındı. Bu məqsədlə geniş ictimaiyyətin rəyini nəzərə almaq üçün dəfələrlə respublika müşavirələri keçirilmiş, 1994-cü ilin 25 dekabrında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin sərəncamı ilə aqrar islahata dair qanun layihələrini işləyib hazırlamaq məqsədilə xüsusi komissiya yaradıldı, islahata həsr olunmuş beynəlxalq konfrans keçirildi.

Nəhayət, islahatın strateji istiqamətlərini müəyyənləşdirən “Aqrar islahatının əsasları haqqında” və “Sovxoz və kolxozların islahatı haqqında” qanunlar 18 fevral 1995-ci ildə təsdiq edildi. «Aqrar islahatının əsasları haqqında» qanun aqrar islahatın məqsəd və vəzifələrini, əsas istiqamətlərini və prinsiplərini müəyyən etdi. Bu qanunla aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması və müxtəlif növlü təsərrüfat subyektlərinin yaradılması, eyni zamanda aqrar bölməyə dövlət himayəsinin istiqamətləri müəyyən edilmiş və aqrar bazarın dövlət tənzimlənməsinin hüquqi əsasları yaradılmışdır (8, s.96).

Aqrar sahədə tammiqyaslı islahatlar aparmaq üçün torpaq islahatı haqqında qanun vacib idi. Buna görə də ümumxalq müzakirəsinə verilmiş «Torpaq islahatı haqqında» qanunun layihəsi diqqəti daha çox cəlb edirdi. Çoxlu mübahisə və araşdırmalara səbəb olmuş bu layihə ilə bağlı bir neçə variantda təkliflər irəli sürülmüşdü. Özəlləşdirmə zamanı torpağın bütün kəndlilərəmi, yoxsa yalnız kolxoz və sovxozda işləyənlərə verilməli olduğu həll edilməli idi. Uzun müddət aparılan geniş müzakirə və axtarışlar nəticəsində ümumi fikir formalaşdı. 1996-cı ilin iyununda “Respublikda aqrar islahatların gedişi və torpaq islahatı haqqında» qanun layihəsinin müzakirəsinə həsr olunmuş” müşavirədə Heydər Əliyev fikrini bildirdi: «Bir prezident kimi, mən Azərbaycanın aqrar bölməsində, ümumiyyətlə, iqtisadiyyatda dövlət siyasətini artıq müəyyən etmişəm. Bu islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu dövlət siyasətimizin əsas prinsiplərindəndir». Heydər Əliyev 1996-cı il iyulun 12-də «Torpaq islahatı haqqında» qanunun müzakirəsi vaxtı demişdir: «Bildiyiniz kimi, respublikanın aqrar sektorunda islahatların aparılması haqqında biz 1993-cü ilin ikinci yarısından ciddi addımlar atmağa başlamışıq və bu məsələ daim bizim diqqətimizdə olubdur, bununla əlaqədar bir çox tədbirlər həyata keçirmişik. İqtisadi islahatların, xüsusən aqrar sahədə islahatların bir tərəfdən mürəkkəb,

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

ikinci tərəfdən çox məsuliyyətli olduğunu nəzərə alaraq biz ardıcıl iş ilə bərabər, dünya təcrübəsini və xüsusən keçid dövründə yaşayan ölkələrin təcrübəsini də öyrənməyə çalışmışıq. Bu islahatları səriştəli aparmaq üçün biz bir neçə eksperimentlər də keçirmişik. Bu islahatların aparılması ilə əlaqədar qanunların hazırlanması üçün vaxtilə komissiyalar yaratmışıq» (4, s.47).

Nəhayət, ümumxalq müzakirələrindən sonra 1996-cı il iyulun 16-da «Torpaq islahatı haqqında» qanun qəbul olundu. Bu qanunun əsas məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən ərzaq təhlükəsizliyinə nail olmaq və s. idi. Bunun üçün torpaq üzərində üç forma dövlət, bələdiyyə və xüsusi mülkiyyət forması müəyyənləşdirilmişdir.

Beləliklə, aqrar islahatların birinci mərhələsində keçmiş kolxoz və sovxozların torpaqlarının və əmlakının özəlləşdirilməsi başa çatdı. Sonra islahatların dərinləşdirilməsinə yönəldilmiş tədbirlər görmək lazım idi. Bunun üçün Respublika Prezidenti tərəfindən bir sıra fərman və sərəncamlar verilmiş, normativ-hüquqi sənədlər və dövlət proqramları qəbul edilmişdir.

Aqrar sahə üçün göstərilən normativ-hüquqi sənədlərdən ən vacibləri "Aqrar islahatının əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və "Torpaq islahatı haqqında" qanunlardır. Bu qanunlar aqrar bölmədə islahatın aparılmasının təşkilati-hüquqi və sosial-iqtisadi əsasının müəyyənləşdirmək, bazar iqtisadiyyatına uyğun müxtəlif təsərrüfat formaları yaratmaq, kənddə azad sahibkarlığı inkişaf etdirmək və torpaq üzərində yeni mülkiyyət münasibətləri formalaşdırmaqdan ibarətdir. Həmin qanunların qəbul edilməsində məqsəd, göründüyü kimi, aqrar bölməni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaqdan ibarət olmuşdur (8, s.98).

Məlumdur ki, MDB ölkələrinin hamısında aqrar islahatlar müxtəlif səviyyədə həyata keçirilir. Təcrübə və araşdırmalar göstərir ki, MDB-yə daxil olan ölkələrdən-Qazaxıstan, Gürcüstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Tacikistanda torpaqlar uzun müddətə icarəyə verilir, Moldovada həyətyanı torpaq sahələri xüsusi mülkiyyətə verilmişdir. Rusiyada Dövlət Duması 1996-cı ildə "Torpaq Məcəlləsi haqqında" qanun qəbul etsə də, torpaqların xüsusi mülkiyyətə verilmədən islahatlar aparılmasını nəzərdə tutursa, respublikamızda islahatlar, torpaqları xüsusi mülkiyyətə verilməklə yeni mülkiyyət münasibətlərinə keçilməsi ilə səciyyələnir. Bu baxımdan, MDB ölkələrindən fərqli olaraq respublikamızda həyata keçirilən aqrar islahatı alternativi olmayan özünəməxsus üsul hesab etmək olar (8, s.106).

Aqrar sahədə gedən islahatlar nəticəsində kənd təsərrüfatının idarəedilməsi strukturunda da ciddi dəyişikliklər baş vermiş, mövcud olan mərkəzi və rayon kənd təsərrüfatı orqanlarının, kolxoz və sovxozların aparat işçiləri 42 min nəfərdən çox mütəxəssis və rəhbər işçilər ixtisar edilərək, sahibkarlığın sərbəst fəaliyyətinə şərait yaradılmışdır. Ərazi və sahə idarəetmə prinsipləri əsasında formalaşan idarəetmə sistemi bazar münasibətlərinin tələblərinə cavab vermirdi. Ona görə də ölkədə idarəetmə strukturu mərkəzi planlaşma prinsipinə uyğun qurulduğuna görə, inzibatçılıq metodları yenə də üstünlük təşkil edirdi. Kənd təsərrüfatının idarə edilməsinin mövcud təşkilati quruluşu da bazar münasibətlərinin prinsipinin tələblərinə uyğun gəlmir, idarəetmənin ayrı-ayrı pillələrində təşkilati strukturlar təkrarlanır, onların funksiyaları arasında fərqlər belə hiss olunmurdu.

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

Ölkədə həyata keçirilən aqrar islahatlar və köhnə təsərrüfatçılıq formalarının ləğv edilməsi və aqrar sahədə mövcud idarəetmə sisteminin yenidən qurulması ilə əlaqədar 1997-ci il tarixli fərman qəbul edildi. Yeni fərmanla təsdiq edilmiş əsasnaməyə görə, «Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı sahəsində dövlət siyasətini formalaşdıran və həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı» kimi təsbit olunmuşdur. Nazirliyin əsas vəzifəsi kimi kənd təsərrüfatı sahəsində iqtisadi islahatların həyata keçirilməsinin təmin edilməsi, sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi, kənd təsərrüfatı sahəsində müvafiq proqram və layihələrin hazırlanması və s. nəzərdə tutulur.

Bununla yanaşı, aqrar sahədə struktur dəyişikliklərinin aparılması, idarəetmədə paralelçiliyin və təkrarçılığın aradan qaldırılması, işin səmərəsinin yüksəldilməsi üçün bir sıra dövlət komitələrinin, şirkətlərinin, idarələrinin vahid kompleksdə birləşdirilməsi məqsədilə islahatlar aparılırdı. Yeyinti məhsulları, taxıl məhsulları dövlət şirkətləri ləğv edildi. 30 dekabr 1998-ci ildə isə fərmanla "Taxıl Ehtiyatları üzrə Dövlət Agentliyi" ləğv olunaraq, ölkədə taxıl və un üzrə dövlət ehtiyatlarının tənzimlənməsi səlahiyyətləri Kənd Təsərrüfatı Nazirliyinə verildi. Bundan başqa, «Azərbaycan Respublikasında aqrar bölmənin idarəetmə sisteminin təkmilləşdirilməsi tədbirləri» haqqında Respublika Prezidentinin 4 fevral 2000-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Baytarlıq Komitəsi və Dövlət Bitkilərin Karantini Müfəttişliyi ləğv edilərək, onların səlahiyyətləri və tabeliyində olan müəssisələr Kənd Təsərrüfatı Nazirliyinə verildi. Qeyd edək ki, respublika və regionlar səviyyəsində aqrar sferanın idarəedilməsinin təkmilləşdirilməsi, istehsalın inkişafına şərait yarada bilən vahid sistemin qurulması davam etdirilir (8, s.110).

Beləliklə, 1995-ci ildən həyata keçirilən aqrar islahatla əlaqədar ölkənin aqrar bölməsində islahatların hüquqi əsasları yaradılmış, mülkiyyət formaları və sahibkarlığın inkişafı üçün ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Hazırda sosial-iqtisadi inkişaf keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş regionların inkişafı ön plana çəkilmişdir. Bu məqsədlə regionlarda sahibkarlığın inkişafını surətləndirməklə mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaq üçün «Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» barədə 11 fevral 2004-cü il tarixli Prezident fərmanı ilə islahatların ikin-ci mərhələsinə başlanmışdır. Əsası 2004-cü ildə qoyulan sosial-iqtisadi inkişafın hazırda dör-düncü Dövlət Proqramı icra olunur.

Ümummilli Liderimiz, Prezident Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar bu sahəsində mülkiyyət və istehsal münasibətlərinin sərbəstləşdirilməsilə iqtisadi yüksəlişin əsası qoyulmuşdur. Həyata keçirilən ardıcıl tədbirlər, institusional dəyişikliklər, ölkə prezidentinin xarici və yerli iş adamları ilə görüşləri, regionlara səfərləri, sahibkarlığın inkişafı ilə bağlı qəbul etdiyi fərmanlar və digər hüquqi-normativ aktlar aqrar islahatların dərinləşdirilməsinə və kənd təsərrüfatında sahibkarlığın inkişafına təkan vermişdir (8, s.112).

2004-cü ilin fevralın 2-də Bakı Biznes Mərkəzinin təntənəli açılış mərasimində yerli sahibkarlarla görüşündə ölkə Prezidenti Cənab İlham Əliyev demişdir: «Müasir Azərbaycanın

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

həyatında sahibkarlığa böyük əhəmiyyət verilir. Prezident Heydər Əliyev bu sahəyə çox böyük əhəmiyyət verir, çox böyük diqqət yetirirdi. Məhz onun rəhbərliyi altında Azərbaycanda 1993-cü ildən iqtisadi islahatlar aparılmağa başlandı. Məhz o islahatların nəticəsində ölkəmiz inkişaf etdi, Azərbaycanda sahibkarlar təbəqəsi yarandı. Təsadüfi deyil ki, Azərbaycanda bazar iqtisadiyyatının, demək olar, bütün prinsipləri öz əksini tapır» (6, s.319).

Aqrar islahatların həyata keçirilməsi, mülkiyyətçilərin təsərrüfat fəaliyyətinə sərbəstlik verilməsi, fəaliyyət nəticələri üçün maraq və məsuliyyət, sağlam rəqabətin inkişafı, iqtisadiyyatın quruluşunun təkmilləşdirilərək inhisardan çıxarılması, tələb-təklifin tarazlaşdırılmasının əsas şərti kimi sərbəst qiymətlər müəyyən edilməsi, iqtisadiyyatın dünya təsərrüfat əlaqələri sisteminə qovuşması bazar münasibətlərini formalaşdırmağın əsas amilləridir. Aqrar sahədə uzun müddət köhnə təsərrüfat mexanizminin formalaşması, sosial-iqtisadi şəraitin spesifikliyi, milli və tarixi xüsusiyyətlər, adət-ənənələr nəzərə alınaraq iqtisadi islahatları həyata keçirməklə bazar iqtisadiyyatını formalaşdırmağın əsas istiqamətləri müəyyənləşdirilmişdi. Ölkədə həyata keçirilən aqrar islahatlar yeni iqtisadi münasibətlər şəraitində beynəlxalq təcrübələrin mənimsənilməsini, müasir texnologiyaların və iş metodlarının gətirilməsini və ayrı-ayrı nümunələrin təcrübi tətbiqini tələb edirdi.

Ölkə öz müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Belə tədbirlər nəticəsində beynəlxalq təşkilatlar, onların regional bölmələri, maliyyə qurumları, ayrı-ayrı xarici ölkələr, onları təmsil edən təşkilatlar və şirkətlərlə əlaqələr genişləndirilmiş, o cümlədən aqrar sahə ilə qarşılıqlı əməkdaşlıq sahəsində mütəmadi işlər görülmüşdür.

1994-2010-cu illərdə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Kənd Təsərrüfatı İnkişafı üzrə Beynəlxalq Fond (İFAD), Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı (WTO), Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Birliyi və onun TACİS proqramı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, NATO-nun Ərzaq və Kənd Təsərrüfatı Planlaşdırma Komitəsi, Beynəlxalq Epizootik Büro, Beynəlxalq Bitki Mühafizəsi Konvensiyası, CGİAR-a daxil olan beynəlxalq elm mərkəzləri ilə, xarici ölkələrin müvafiq sahə üzrə təşkilatları olan Alman Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ), Türk İş Birliyi və Kalkınma Ajansı (TİKA), İsrail Xarici İşlər Nazirliyinin MASHAV Beynəlxalq Əməkdaşlıq Mərkəzi, Misirin MDB ölkələri üzrə Texniki Əməkdaşlıq Fondu və Misir Beynəlxalq Kənd Təsərrüfatı Fondu, Hollandiyanın Mərkəzi və Şərqi Avropa ölkələri üçün PSO proqramı və digər beynəlxalq təşkilatlarla, mərkəzlərlə və agentliklərlə səmərəli əlaqələr qurulmuşdur. Bu, regionlarda sahibkarlığın formalaşmasına, yeni təsərrüfatların yaradılmasına və bazar iqtisadi münasibətlərinin inkişafına imkan vermişdir.

## YEKUN

Ulu Öndər Heydər Əliyevin islahatlar strategiyası aqrar sahədə tətbiq edilən beynəlxalq layihələr sahibkarların yeni vərdişlər əldə etmələrinə və sosial-iqtisadi sahələr üzrə bilgilərinin artırılmasına, onların təşkilatlanmalarına müsbət təsir göstərmiş, aşağıdakı məsələlərin həllində böyük əhəmiyyət kəsb etmişdir:

– aqrar islahatların həyata keçirilməsinə kömək üçün siyasət istiqamətlərinin müəyyənləşdirilməsində, özəl sahənin dəstəklənməsində;

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

– qabaqcıl təcrübənin, texnologiyaların və bazar iqtisadiyyatına əsaslanan sahibkarlıq vərdişlərinin yayılması və təkmilləşdirilməsində;

– torpaq mülkiyyətçilərinin təşkilatlanmasında, tədris xarakterli nümunəvi fermer təsərrüfatlarının yaradılmasında;

– seçilmiş pilot təsərrüfatlarda torpaq qeydiyyatı xidməti, informasiya məsləhət xidməti yaratmaqda, torpaq mülkiyyətçilərinə mülkiyyət hüququna dair dövlət aktı və şəhadətnamələr verilməsini təmin etməkdə;

– kənd təsərrüfatının ayrı-ayrı sahələrinin və emal sənayesinin regionların təbii-iqlim şəraitinə və mövcud potensiala uyğun inkişaf etdirilməsində;

– kartof toxumçuluğunun, damazlığın və süni mayalanma xidmətinin, istixana və gülçülüyün, yem istehsalının inkişafı və onun bazasının yaradılmasında;

– kənddə özəl kredit xidmətinin yaradılması və kreditləşmə metodlarının tətbiqində, sahibkarların kreditləşdirilməsində;

– sahibkarlara kənd təsərrüfatının müxtəlif sahələri üzrə alim və mütəxəssislər tərəfindən məsləhət və informasiyalar verilməsində;

– aqrobiznes qurumlarının yaradılmasında, biznes planların hazırlanmasında, kiçik biznesin təşkilində;

– bitki örtüyü və torpaqların inventarlaşdırılması və bununla əlaqədar dəqiq məlumatlar əldə etməkdə, bunun üçün milli kadrlar hazırlamaqda;

– bitki mühafizəsi və karantin, baytarlıq, elmi-texniki əməkdaşlığın inkişafı sahəsində;

– ölkədə daşınmaz əmlakın qeydiyyatı, kənd təsərrüfatının maliyyələşdirilməsində, su təchizatı, drenaj sisteminin təmir və bərpasında;

– yeni iqtisadi münasibətlərlə əlaqədar sahibkarlara mühasibat, bank işi, vergi, sığorta, statistika, qeydiyyat işi və s. ilə əlaqədar məsələlər barədə məsləhətlər verilməsində və s.

Kənd təsərrüfatında dünyanın nüfuzlu təşkilatları ilə aqrar sahənin prioritet istiqamətləri üzrə əlaqələr genişlənir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016. 111 s.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Perspektivlər. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı. Bakı, 2021. 101 s.
3. Əliyev Heydər. “Müstəqilliyimiz əbədidir”. Bakı, 1997. 608 s.
4. Əliyev Heydər. “Müstəqilliyimiz əbədidir”. Bakı, 1997. 488 s.
5. Əliyev Heydər. “Müstəqilliyimiz əbədidir”. Bakı, 1998. 520 s.
6. Əliyev İlham. “İnkişaf məqsədimizdir”. Bakı, 2009. 492 s.
7. İbrahimov İ. H. “Aqrar islahatlar və sahibkarlığın inkişafı”. Bakı, 2005, 220 s.
8. İbrahimov İ. H. “Aqrar sahənin iqtisadiyyatı”. Bakı, 2016, 655 s.
9. İbrahimov İ. H. “Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri”. Bakı, 2022, 240.

**AUDİT 2023, 1 (39), səh. 13-21.**
**AUDIT 2023, 1 (39), pp. 13-21.**
**АУДИТ 2023, 1(39), стр. 13-21.**

*Islam Haji Ibrahimov,*
*D.Sc.(Econ.), Professor,*
*Honored Agriculture Worker,*
*Baku Business University,*
*E-mail: bbu-kafedra@mail.ru*
*© I.H. Ibrahimov, 2023*

## HEYDAR ALIYEV'S REFORM STRATEGY IS THE BASIS OF AGRICULTURAL DEVELOPMENT

### A B S T R A C T

National Leader Heydar Aliyev identified the need for agrarian reforms in Azerbaijan, determined their main directions, substantiated the strategy of this process and led the development of mechanisms for the preparation and implementation of their legislative framework. Systematic and purposeful mechanisms for implementing the planned strategy were developed, foundations were created for ensuring entrepreneurship and socio-economic development based on the formation of new economic relations.

**Keywords:** agrarian reforms, legal bases, ownership, economic relations, entrepreneurship, strategy.

*Ибрагимов Ислам Гаджи оглы,*
*доктор экономических наук, профессор,*
*Заслуженный работник сельского хозяйства,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: bbu-kafedra@mail.ru*
*© Ибрагимов И.Г.,2023*

## СТРАТЕГИЯ РЕФОРМ ГЕЙДАРА АЛИЕВА - ОСНОВА РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА

### Р Е З Ю М Е

Общенациональный Лидер Гейдар Алиев определил необходимость проведения в Азербайджане аграрных реформ, определил их основные направления, обосновал стратегию этого процесса и возглавил разработку механизмов подготовки и реализации их законодательной базы. Были разработаны системные и целенаправленные механизмы реализации намеченной стратегии, созданы основы для обеспечения предпринимательства и социально-экономического развития на основе формирования новых экономических отношений.

**Ключевые слова:** аграрная реформа, правовые основы, собственность, экономические отношения, предпринимательство, стратегия.

*Məqalə redaksiyaya daxil olmuşdur: 19.12.2022*
*Təkrar işləməyə göndərilmişdir: 28.12.2022*
*Çapa qəbul olunmuşdur: 05.01.2023*

*Дата поступления статьи в редакцию: 19.12.2022*
*Отправлено на повторную обработку: 28.12.2022*
*Принято к печати: 05.01.2023*

*The date of the admission of the article to the editorial office: 19.12.2022*
*Send for reprocessing: 28.12.2022*
*Accepted for publication: 05.01.2023*